

# Andy Warhol

## həyat, ölüm və gözəllik

HEYDƏR ƏLİYEV FONDU

HEYDƏR ƏLİYEV MƏRKƏZİ

# Andy Warhol

## həyat, ölüm və gözəllik

BAKI - 2013



Azərbaycan qədim tarixi, adət-ənənələri ilə seçilən ölkədir. Burada müxtəlif mədəniyyətlər, Şərqlə Qərb sivilizasiyası, tarixlə müasirlik bir-birinə qovuşur.

Qədim ənənələri olan Azərbaycan bu gün həm də müasir incəsənət ölkəsi kimi tanınır.

Bakıda bir tərəfdə tarixi İsmailiyyə binası, Qız Qalası, Qobustan qayaüstü rəsmləri, Şirvanşahlar Sarayı, digər tərəfdə isə Heydər Əliyev Mərkəzinin qeyri-adi görünüşlü binası, Flame Tower, Bakı Kristal Zalı. Bakı bu siması, ab-havası ilə bir incəsənət paytaxtı kimi öz sözünü deyir və bütün sənətsevərləri ətrafında toplayır.

Son zamanlar Bakı bir çox beynəlxalq tədbirlərə, müxtəlif sahələri əhatə edən konfrans, festival və yarışmalara ev sahibliyi edib. Bu dəfə isə Bakı daha bir əlamətdar hadisə ilə diqqət mərkəzindədir. Azərbaycanda, Heydər Əliyev Mərkəzində ilk dəfədir ki, modern rəssamlıq tarixinə adını həkk etmiş Endi Vorholun əsərlərinin sərgisi keçirilir.

Tarixi ənənələri, mədəni irsimizi yaşadan Heydər Əliyev Mərkəzi bu gün müasir incəsənət layihələri ilə yanaşı, Şərq və Qərb mədəniyyəti arasında körpünün yaranmasına, Azərbaycan mədəniyyəti və incəsənətinin dünyaya, eyni zamanda da dünya sivilizasiya nümunələrinin Azərbaycanda təbliğinə dəstək olur.

Bu baxımdan Endi Vorholun "Həyat, ölüm və gözəllik" sərgisi müasir incəsənəti tanıtmaq və yaşatmaq istiqamətində uğurlu layihədir.

Bir daha bütün sənətsevərləri bu sərginin keçirilməsi münasibəti ilə təbrik edirəm və inanıram ki, incəsənət sahəsindəki bu tarixi hadisə sizdə xoş təəssüratlarla yadda qalacaq.

**Leyla Əliyeva**
Heydər Əliyev Fondunun
vitse-prezidenti

Amerika Birləşmiş Ştatlarında bir rəssamın böyük və zəngin muzeyi olan Endi Vorhol Muzeyi Azərbaycanda, Heydər Əliyev Mərkəzində "Həyat, ölüm və gözəllik" adlı sərgini təqdim etməkdən məmnunluq duyur.

Biz Endi Vorholun əsərlərinin Azərbaycanda ilk dəfə keçirilən təqdimatının həyəcanını yaşayırıq. Bu geniş sərgidə Vorhol tərəfindən yaradılmış 100-dən çox insəcənət əsəri, o cümlədən rəsmlər, fotoşəkillər, Vorhol Muzeyinin kolleksiyasından olan Jaklin Kennedinin, Merilin Monronun, Maonun təsirli portretləri və qısa filmlər təqdim edilir.

Ümidvarıq ki, sərginin qonaqları Vorholun kütləvi mədəniyyətə təsirini və "Amerika arzusuna" baxışlarını öyrənə biləcəklər. Onlar yalnız Vorhol haqqında deyil, eyni zamanda avanqard film, pop-art barədə də geniş məlumat əldə edəcək.

Vorholun əsərlərini dünyanın bir çox muzeylərində təqdim edən Endi Vorhol Muzeyinin geniş səyyar sərgi proqramı var. Muzeyin 1996-cı ildən etibarən 40 ölkədə təşkil etdiyi sərgilərini 10 milyondan çox ziyarətçi izləyib.

Və biz Azərbaycanda Heydər Əliyev Mərkəzinin gözəl sərgi salonunda Vorhol irsini nümayiş etdirməkdən çox məmnunuq!



**Erik Şiner**
Endi Vorhol Muzeyinin
direktoru



Endi Vorholun ən böyük istəyi ünsiyyət qurmaq, incəsənəti zirvələrə qaldıraraq onu hər bir kəsə-zənginlərə və məşhurlara, eləcə də adi insanlara sevdirmək idi. Ünsiyyətə mühüm, estetik və ideoloji bir strategiya kimi baxan Vorhol öz lingvistikasını bir sıra innovasiyalarla zənginləşdirmiş, ünsiyyətində hər növ danışıq üslübundan yararlanmışdır. Məhz bu qabiliyyət onu 20-ci əsrin ən tanınmış rəssamı etmişdir.

Sürətli dəyişikliklər və qısaömürlü dəblərlə səciyyələnən bir əsrdə Endi Vorholun sənəti hələ də yaşayır. Əlli ildən sonra belə, bu incəsənət özünü çoxsaylı ünsiyyət və yaradıcı ifadə formalarında, üstəlik onun ikonoqrafiyalarını aktual şəkildə əks etdirən daha geniş yayılmış və kütləvi çeşidli reklam formasında büruzə verir. Əgər üstünlük və sürət 20-ci əsri təcəssüm etdirən məqamlar idisə, o zaman Vorhol dahi ideya yaradıcısı hesab edilə bilər. O, incəsənətə estetik, formal və ya konseptual innovasiyalarla zəngin həyat verməklə kifayətlənməyərək, incəsənət və cəmiyyət arasında münasibətlərdə radikal dəyişikliklərə nail olmuşdur.

Bu gün də rəssamın pərəstişkarları onun haqqında danışır, sitatlar gətirir və dünyanın ən qabaqcıl sənətkarları ilə eyni mövqedə tuturlar. Təsadüfi deyil ki, bir çox rəssamlar Vorhola istinad edərək onun sənətindən hələ da yararlandıqlarını bildirirlər.

Bu gün möhtəşəm Heydər Əliyev Mərkəzində Vorholun sərgisində iştirak etdiyim üçün böyük şərəf duyuram və inanıram ki, Heydər Əliyev Mərkəzi gələcəkdə bir çox mühüm layihələrə ev sahibliyi edəcək və Bakını müxtəlif mədəniyyətlərin kəsişdiyi bir mərkəzə çevirəcək.

Mən fürsətdən istifadə edərək bir daha Endi Vorhol Muzeyinə bu layihədə iştirakına görə minnətdarlığımı bildirirəm. Çünki onların dəstəyi olmadan belə mühüm bir sərgini həyata keçirmək çətin olardı. Həmçinin Heydər Əliyev Mərkəzinə və Heydər Əliyev Fonduna bu sərginin təşkilinə görə öz təşəkkürümü bildirirəm.

**Cianni Merkurio**
Endi Vorhol sərgisinin
kuratoru



pop-art kralı

Endi Vorhol. O, adi bankanı belə incəsənət əsərinə çevirə bildi və müasir incəsənətdə pop-art hərəkatını yaratdı. Endi Vorhol bu gün də müasir incəsənətin zirvəsindədir. Onun əsərləri bu gün də heyranlıqla izlənilir və dünyanın hər bir yerində böyük maraqla qarşılanır.

Endi Vorhol II Dünya Müharibəsindən sonrakı dövrün ən mürəkkəb bədii simalarından hesab olunur. O, ekletika üslubu ilə 1960-cı və 1970-ci illər amerikan mədəniyyətinin simvolu sayılır. Endi Vorhol rəssam, reklam illüstratoru, heykəltəraş, kinoprodüser, videorəssam, reklam direktoru, televiziya prodüseri, kino aktyor, model, novella müəllifi, filosof, dramaturq, jurnal direktoru və redaktoru, qrafik dizayner, fotoqraf, musiqi prodüseri, pop ulduzların meneceri olub.

Vorhol 1960-cı illərin başlanğıcında Nyu-Yorkda “Mən maşın kimi işləmək istədiyimə görə bu cür şəkil çəkirəm” bəyan etməklə, rəssamlıq praktikasını “mexanikləşdirmək” planını sınaqdan keçirməyə başladı. Bu bəyanatlar onun təkcə rəssamlıqla bağlı fikirlərinin deyil, həm də başlıca arzularından birinin - təsviri incəsənətin kommunikasiya

incəsənəti ilə çulğalaşmasının, Endi Vorhol adının yalnız incəsənət dünyasında deyil, hətta bütün şəraitlərdə tanınacaq, eyni zamanda zamanın ruhunu əks etdirən markaya çevrilməsi məqsədi daşıyan strategiyanın ifadəsi idi.

Ünsiyyət Vorhol üçün mühüm, estetik və ideoloji strategiya idi. Bu qabiliyyət onu 20-ci əsrin ən tanınmış siması etmişdir.

Sürətli dəyişikliklər və qısaömürlü dəblərlə səciyyələnən əsrdə Endi Vorholun sənəti necə yaşaya bildi? Əlli ildən sonra belə bu incəsənət özünü çoxsaylı ünsiyyət və yaradıcı ifadə formalarında büruzə verir. Bu uzunömürlülüyün sirri nədədir? Və nə üçün o, 20-ci əsrin ikinci yarısının simvolu hesab edilir? Bu sualın cavabı ondadır ki, Vorhol incəsənətə estetik, formal və ya konseptual innovasiyalarla zəngin həyat verməklə kifayətlənməyərək, incəsənət və cəmiyyət arasında münasibətlərdə radikal dəyişikliklərə nail olub. Vorhol fikir və innovasiyaları ilə həyata münasibətdə yeni prinsipial mövqe müəyyən etmişdi.



# həyat, ölüm və gözəllik

Şəkil və təsvirlərin arxasında Vorholun həyat, sənət və ölüm arasında münasibətlərə əsaslanan estetikası dayanır. 15 dəqiqəlik zaman kəsiyində şöhrət, uğur, pul, görkəm əldə etməklə xoşbəxtlik axtarışı Endi Vorholun ekzistensial etikasının əsaslarını təşkil edən konsepsiyalardan biridir. Bu bir həqiqətdir ki, Vorhol 1980-ci illərdə cəmiyyətdəki dəyişiklikləri əxz etmiş və onun çox güclü estetizasiyasının təsiri ilə vücud pərəstişi, şöhrət düşkünlüyü və media asılılığı kimi cəhətlərlə səciyyələnən axın meydana gəlmişdi.

Bir çoxlarının israfçılıq ideologiyasının müəllifi kimi qəbul etdiyi Vorhol əsərlərində çox məharətlə şifrələnmiş, lakin onun bütün külliyyatına vahid yanaşmadan anlaşıla bilən dərin dini hissləri ifadə etməkdən heç zaman çəkinməmişdir. Vorhol ölümündən iki il əvvəl həyatının ən mürəkkəb əsəri olan "Sonuncu şam yeməyi" (*The Last Supper*) üzərində işləməyə başlayır. Bu, onun "Renessans rəsmləri" silsiləsinə aid digər əsərlərində, Bottiçellinin "Venera"sında və Leonardonın "Müjdə"sində olduğu kimi sadəcə postmodern yanaşma ilə yeni baxışı deyil, daha çox onun körpəlik çağından və yeniyetməlik dövründən aldığı tərbiyədən başlayan dərin mənəvi səyahətin yekun nəticəsi idi.

Metropoliten Muzeyinin müasir incəsənət bölməsinin ilk kuratoru və Vorholun 1960-cı ildən son günlərinə qədər dostu olmuş Henri Geldzahler qeyd edirdi: "Ən azı üç Vorhol olub və onların bir-biri ilə qarışdırılması rəssamın əsərlərinin bir-birinə zidd qiymətləndirilməsi ilə nəticələnir".



Sonuncu şam yeməyi, 1986

Vorhol öz səciyyələndirmələrini amerikan kütləvi mədəniyyətinin bəhrələndiyi rəsmlər dünyasından seçir: əfsanəvi xüsusiyyətlərə malik ulduzlar panteonundan aparıcı istehlak məhsullarının markalarına, orta amerikalının gündəlik həyatındakı tanış əşyalara, məsələn, çiçək motivli divar kağızlarına qədər.

Vorholun yaratdığı simvollar real həyatla qarşılaşdırılan ulduz personajları, xüsusilə də qadını təcəssüm etdirir. Həmin rəsmlərdə 1962-ci ildə intihar etmiş Merilin Monro və ya kino ulduzları kimi qırmızı fonda dayanmış Jaklin Kennedi möhtəşəm təsvir edilib. Qətlə yetirilmiş prezident Kennedinin dəfn mərasimi zamanı qəzetlərdən götürülmüş şəkillər dövrün faciəli təzadlarını, Vorholun mənsub olduğu nəslin media nümayəndələrinin mənəvi dəyərlərdən kənara çıxmasını nümayiş etdirir.

Vorholun Merilin Monronun “Niaqara” filmindən götürdüyü və aktrisanın faciəli ölümündən dərhal sonra işlədiyi, 1962-ci ildən etibarən bir neçə dəfə təkrarladığı surəti onun məşhur simvollarından birinə çevrilib.

Sonrakı onilliklər ərzində Vorhol digər məşhur xarakterləri də canlandırıb. Lakin onların sırasında başlıcaları 1986-cı ildə-Sovet İttifaqının dağılmasından bir neçə il əvvəl işlədiyi, mumiyalanaraq Moskvada, Qızıl Meydandakı mavzoleydə saxlanan Lenin, habelə Mao olub. Çin dövlət xadiminin milyonlarla insanın oxuduğu “Kiçik qırmızı kitab”da həkk edilmiş təsviri 1970-ci illərin sonunda Birləşmiş Ştatlarda çox məşhur olub.





Sonuncu şam yeməyi, 1986



On səkkiz rəngli Merilin, “Reversal” silsiləsindən, 1979-1986-cı illər



**Lenin, 1986**



Mao, 1973



Qırmızı Ceki, 1964



Ceki, 1964



**Oraq və çəkic, 1976**



Dollar işarəsi, 1981



Cudi Qarlend və Liza Minnelli, 1979

# portretlər

*“İnsanlar və sivilizasiyalar dağılmağa, maddiləşməyə başlayanda, onlar həmişə zahiri gözəlliklərinə və zənginliklərinə işarə edərək deyirlər ki, etdikləri əməllər pis olsaydı, onlar bu qədər uğur qazanmaz, zəngin və gözəl olmazdılar(...)Lakin gözəlliyin və zənginliyin sizin nə dərəcədə yaxşı olmağınızla əlaqəsi yoxdur. Çünki baxın, nə qədər gözəl xərçəng xəstəliyinə tutulur. Və hətta qatillərin arasında belə o qədər gözəl simalı insanlar varki“.*

1970-ci və 1980-ci illərdə aktyorlar, rejissorlar, yazıçılar, rəssamlar, işgüzar dairələrin məşhurları və dünya elitasının görkəmli simaları zamanı əbədiləşdirmək arzusu ilə Robert Rozenblumun “1970-ci illərin saray rəssamı” adlandırdığı Vorhola portretlərini çəkdirmək üçün növbəyə dururdular.

Sifariş əsasında saysız-hesabsız portretlər “Polaroid” fotoaparatından işıq üzü görürdü. Vorhol köməkçilərinin trafaret üsulu ilə bir neçə variantda çap etdikləri şəkillərin üzərinə müdaxilələr edərək onların dodaq və gözlərini rəngləyirdi. Vorhola görə portreti rənglərin vasitəsi ilə onun üzərində məharətlə işləmək cəlbedici edir. “Sevgi qayığı” *(Love Boat)* teleserialının prodüserləri Lana Törnerin layihədə iştirakını qeyd etmək üçün Vorhola qısa vaxt ərzində onun portretinin işlənməsini sifariş etmişdi. Bu zaman rəssamın vəzifəsi aktrisanın yaxın keçmişdəki fotoşəkillərindən istifadə etməklə 60 yaşlı qadının 25 yaşlı obrazda portretini yaratmaq idi. Fani dünyanın etibarsızlığına hədsiz dərəcədə inanan Endi üçün ölümsüzlüyün dəyəri yox idi və buna görə də onun əsərlərinin obyektləri simvolik dizayn əməliyyatlarına məruz qalırdılar.

*“Ölüm sizi ulduz kimi göstərə bilər. Adətən hər kəs belə deyir: “Siz onun makiyajını gördünüz? Necə gözəldir”. Onlar, həmçinin çiçəklərdən də danışırlar, lakin ən çox makiyaj barədə söhbət edirlər. Və əgər siz məşhursunuzsa, insanlar sizi görmək üçün günlərlə növbəyə durarlar. Mən də Cudi Qarlendi görmək üçün növbəyə durmuşam... Ölüm sizi ulduz kimi göstərə bilər, amma makiyajınız yaxşı deyilsə, heç nə yaxşı deyil... Deməli ölərkən makiyajınızın yaxşı göründüyünə əmin olmalısınız”.*



Liza Minnelli, 1979



Cozef Beys, 1980



Dennis Hopper, 1971



Lana Törner, 1985



Filipin kəlləsi (rentgen şəkilləri), 1985



Roy Lixtenşteyn, 1976

# avtoportretlər

*"Hər gün güzgüyə baxıram və hər dəfə bir şey – yeni sızanaq görürəm. Əgər sağ yanağımın üstündəki sızanaq gedibsə, sol yanağımın aşağısında, çənəmin altında yenisi əmələ gəlir, (...) Albinos dəri. Perqament kağızı kimi. Sürünən heyvanlardakı kimi sümüyü çıxmış arıq dizlər. Çapıqlarla çəkilmiş yol xəritəsi. Ağardılmış uzun bəyaz qollar. Diqqət cəlb edən əllər. Noxud boyda gözlər. Yöndəmsiz qulaqlar... Bozarmış dodaqlar. Metal parıltılı pırtlaşıq gümüşü-ağ saçlar. İri xirtdəyin ətrafından çıxan boyun damarları. Hamısı ordadır. Heç nə yaddan çıxmayıb. Albom mənim haqqımda hər şeyi göstərir".*

Rəssam "Endi Vorholun fəlsəfəsi"ndəki bu sözlərlə özünün dəhşət doğuran bədii portretini çəkib. Vorhol həyatı boyu öz portretini yaradıb və bu avtoportretlər sənətkarın əsərləri sırasında başlıca mövqedə dayanır. *"Mən İvandan (Leo Kastelli qalereyasının ilk direktoru) həm də ideyalar haqqında soruşdum və o, belə bir məqama toxundu: "Bilirsən, insanlar səni görmək istəyir. Xarici görünüşün sənin məşhurluğunun ayrılmaz hissəsini təşkil edir və təxəyyüllərə yol açır". Bu sözlərdən sonra mən ilk avtoportretimi yaratmağa qərar verdim".*

*"POPizm" kitabından.*

Avtoportretlər sənətkarın bir növ qəlbinin aynası olmalıdır. Çünki bu ayna hər zaman görünməyən keyfiyyətləri və mövqeləri üzə çıxarır. Portret və avtoportret yaratma prosesi, rəssamın dediyi əsl portretin meydana gəlməsi ilə nəticələnir. Endi Vorhol 1987-ci ildə həyatla vidalaşdı, lakin indiyə qədər dünyanın ən iddialı, ən məhsuldar və ən güclü rəssamı kimi qalmaqdadır. Hər bir sənətkar yaratdığı yolda ölümsüzdür, lakin Endi Vorhol bir növ, Ezra Poundun ifadəsi ilə desək "əbədiyyət aləminə" qovuşub.



Avtoportret, 1978



**Avtoportret, 1978**



Avtoportret, 1986

“Mən onun xarakterinin ən yaxın dostlarından başqa hamıdan gizlətdiyi cəhətindən - dinə bağlılığından söz açmaq istəyirəm. Bəli, onun belə bir xüsusiyyəti var idi  və bununla sənətkarın mənəvi dünyasını anlamaq mümkündür”.  Tənqidçi Con Riçardson 1987-ci ildə Vorholun dəfn mərasimində etdiyi çıxışına bu sözlərlə başlamışdı.

Əgər Vorholun dini təhsilini və onun varlığını şərtləndirən mədəni kökləri müxtəlif cəhətlərdən araşdırmış olsaq, rəssamın yaradıcılığını daha yaxından  anlaya və onun bizə artıq tanış olan ziddiyyətli xarakteri ilə valehedici simaya çevrilməsinə  töhfəmizi vermiş olarıq.

Vorhol heç bir əsərini “Sonuncu şam yeməyi” *(The Last Supper)* qədər təhlil etməyib və yüzlərlə variantda yenidən işləməyib. Ölümündən iki il əvvəl işləməyə başladığı bu əsər heç şübhəsiz ki, Vorholu Amerikanın dini mövzuya ən çox müraciət edən rəssamı kimi tanıdıb. Təsadüfi deyil ki, nyu-yorklu rəssam öz sənət yolunu “Dərin dini rəsmlər silsiləsi” ilə başa çatdırıb. Əlbəttə ki, mövcudluğun müvəqqətiliyi hissi gündəlik həyatın dolambaclarında daha parlaq şəkildə ifadə olunmağa başlayırdı. Tamamilə aydındır ki, Endinin ölümünə səbəb olmuş adi əməliyyat sonrası ağırlaşma əvvəlcədən görülə bilməzdi. Lakin bir şey aydındır ki, sənətkar dinə sevgisini “Sonuncu şam yeməyi” əsərində şüurlu olaraq yenidən yaşamış, mövzuya transformasiya olunaraq  ruhunun günahlardan qurtulmasına ithaf etmişdi.

din



Yumurtalar, 1982



Xaç, 1981-1982



Sonuncu şam yeməyi (Fraqment), 1986



Madonna və körpə, tarixi məlum deyil



Sonuncu şam yeməyi, 1986



Dua edən kişi əlləri, 1950-ci illər




Sui-qəsd, 1963

# ölüm

Yəqin ki, ölüm Vorholun yaradıcılığına rəng qatan əsas mövzu olub. Bu mövzu onun əsərlərində 1962-ci ildən müşahidə edilməkdədir. “Maşın qəzası” *(Car Crash)* və ya “Sui-qəsd” *(Suicide)* kimi əsərlərdə ölüm aşkar şəkildə göstərilirsə, “Elektrik stulu”nda *(Electric chair)* ağ-qara boşluqda gizlədilir. Bu, həmçinin köhnə balıq ətindən zəhərlənərək ölən qadınlarla bağlı qəzet xəbərləri əsasında hazırlanmış “Tunabalığı bəlası” *(Tunafish disaster)* rəsmində də müşahidə olunur.

Vorhol söyləyirdi ki, bu əsərlərdə o, “Amerikada ölüm”ü təsvir etmək istəyib. “Amerikan ölümü” mövzusu onun portret əsərlərində də gözlənilməz şəkildə təsvir olunur (insan öldükdən sonra portreti qaldığına görə portret rəssamlığının ölümlə əlaqədar olması haqqında nəzəriyyəyə əsasən).

Vorhol fotojurnalistika məhsullarından mexaniki olaraq köçürülmüş ölüm təsvirlərində nəinki nümayiş etdirilən faktı, hətta onun arxasında olanı, daxili aləmin ümumi iztirablarını da üzə çıxarır. Vorhol ölümü uşaq çağlarında atasını itirdiyi zaman tanıyıb. Qardaşının dediyinə görə “o, ümidini itirmiş və tabuta baxa bilməyəcək dərəcədə ruhdan düşmüşdü”.

“Silahlar” və “Bıçaqlar” əsəri gündəlik həyatı alt-üst edən zorakılıq mühiti ilə bağlıdır. Endi burada bir daha dövrünün mahir yozucusu olaraq, konstitusiyaya əsasən silah daşımağa hüquq verən silahlı Amerikanı təsvir etmişdi. 1981-ci ildə yeni ölüm təhlükəsinin ardınca, Vorhol gülləkeçirməz paltar almaq qərarına gəlir və bu qorxusunun milyonlarla amerikalının qorxusu ilə üst-üstə düşdüyünü görür.

Elə həmin il prezident Reyqana qarşı edilmiş sui-qəsd cəhdindən bir neçə gün sonra silah satışı rekord vurdu və hətta xəbərlərdə Papanın belə sui-qəsd cəhdinə məruz qaldığı bəyan edildi.



Kəllə, 1976



Güllər,1964-1965



Güllər, 1970



Bıçaqlar, 1981-1982



Tapança, 1981-1982




Tunabalığı bəlası, 1963




Ölüm anı, 1954



İntibah rəsmlərindən fraqmentlər (Sandro Bottiçelli, Veneranın doğulması, 1482), 1984



## sübut

Sənətkarın ömrünün son on ili mürəkkəb çalarlı axtarışları və Vorhola xas olmayan formal zərifliyi ifadə edən əsərlərlə başladı. Vorhol “Nəsli tükənən növlər” (*Endangered species*) silsilə əsərində, Bottiçellinin “Venera”sını və Leonardonın “Müjdə”sinin timsalında incəsənət tarixinə yenidən nəzər salaraq həmin illərin postmodern dövründəki təzahürü ilə dialoq qurur. Vorholun klassik incəsənətin şah əsərlərinə, o cümlədən Bottiçellinin “Yaz”ına və ya Leonardonın “Müjdə”sinə öz interpretasiyasını vermək seçimi dahi sənətkarların əsərlərini ölməz və müasir edən cəhətlərə xüsusi diqqət göstərilməsi zərurətini ortaya çıxarır. O, bunu ayrı-ayrı elementləri bir-birindən ayıraraq, onlara müasir simvollar əlavə edərək və eyni zamanda onlara yeni həyat verərək, bir-birinə birləşdirərək yaradır.
1980-ci illərin ortalarında yaratdığı “Kamuflyaj” əsərində o, abstraksiyanın yeni formasını sınaqdan keçirir. Bu əsərdə həqiqi kamuflyaj (boz - yaşıl) həm gündəlik geyim əşyası və hərbi rəmz kimi, həm də ABŞ-ın simvolu olan “Azadlıq heykəli”nin fonu kimi çoxrəngli versiyada təqdim edilir.
Tale sanki dövrəni qapamaq üçün Vorholu yenidən reklam işinə qaytarır. “Son reklam” seriyasında ağ-qara cizgilər onun ilk işlərinin natamamlığını yada salır. Digər reklam seriyalarında gələcəkdə prezident olacaq, ilk tez quruyan turist köynəyi üçün modellik etmiş aktyor (Ronald Reyqan) və ya “Səbəbsiz üsyan” filminin reklamında çəkilmiş Ceyms Din təsvir olunmuşdu.
İyirmi ildən artıq bir müddət keçdikdən sonra Endi yenidən reklam mövzusuna müraciət etmişdir. Lakin karyerası boyu nəyi və ya kimisə reklam etmək üçün yaradılan rəsmlərdən fərqli olaraq, bu əsərlər bilavasitə reklam dünyasının mahiyyətini üzə çıxarmışdır.



İntibah rəsmlərindən fraqmentlər (Leonardo da Vinçi, Müjdə, 1472), 1984



Etrusk fiqurları (Dişi şir qəbri, Tarkviniya), 1986




Səbəbsiz üsyan (Ceyms Din), 1985




Ronald Reyqan, 1985



Azadlıq heykəli, 1980-ci illər



Azadlıq heykəli, 1986



Kamuflyaj, 1987



Gümüş buludlar (Vorhol Muzeyinin silsilə əsərləri), 1994, təkrar çapı -1994.



Nəsli kəsilməkdə olan növlər, 1983, Sibir pələngi



Nəsli kəsilməkdə olan növlər, 1983, Qara kərgədanlar



Nəsli kəsilməkdə olan növlər, 1983, İri buynuzlu qoç



Nəsli kəsilməkdə olan növlər, 1983, Ağac qurbağası



Nəsli kəsilməkdə olan növlər, 1983, Nəhəng panda



Nəsli kəsilməkdə olan növlər, 1983, San Fransisko gümüş ləkə



Nəsli kəsilməkdə olan növlər, 1983, Oranqutan



Nəsli kəsilməkdə olan növlər, 1983, Qrevi zebri



Nəsli kəsilməkdə olan növlər, 1983, Afrika fili



Nəsli kəsilməkdə olan növlər, 1983, Keçəl qartal



# Hayatı

Endi Vorhol 1928-ci ildə Pensilvaniya ştatının (ABŞ) Pitsburq şəhərində doğulub. İlk adı Endryu Vorhola olub. O, 1945-ci ildə Karneqi Texnologiya İnstitutuna (hazırda Karneqi Mellon Universiteti) daxil olub və qrafik dizayn ixtisası üzrə təhsil alıb. Vorhol məzun olduqdan sonra Nyu-Yorka köçərək reklam rəssamı kimi fəaliyyət göstərməyə başlayıb. O, bir sıra jurnallarda, o cümlədən *Vogue*, *Harper's Bazaar* və *The New Yorker* dərgilərində rəssam işləyib, *Bonvit Teller* və *I. Miller* kimi mağazaların vitrin tərtibatı ilə məşğul olub. Rəssam sanki gələcəkdən xəbər verirmiş kimi, ilk işini *Glamour* jurnalında çap edilən "Nyu-Yorkda bir iş sahibi olmaq uğur deməkdir" başlıqlı məqalə üçün çəkib.

Vorhol 1950-ci illər ərzində Bədii Redaktorlar Klubunun və Amerika Təsviri İncəsənət İnstitutunun fəxri mükafatlarını qazanaraq reklam rəssamı kimi uğurlu karyera qurur. Həmin illərdə o, soyadının qısaldılmış formasını - Warhol (Vorhol) soyadını qəbul edir.

1952-ci ildə Hüqo qalereyasında rəssamın Trumen Kapotenin əsərləri əsasında "On beş rəsm" adlı ilk fərdi sərgisi keçirilir. 1950-ci illərdə onun əsərləri müxtəlif yerlərdə, o cümlədən 1956-cı ildə Müasir İncəsənət Muzeyində sərgilənir. 1960-cı illər Vorhol üçün xeyli məhsuldar olur.  O, 20-ci əsr incəsənətinin simvollarına çevrilmiş çoxsaylı rəsmlər (məsələn, *Campbell's Soup Cans*, *Disasters* və *Marilyns*) yaradır. Vorhol rəssamlıqla yanaşı avanqard incəsənətin klassik nümunələrinə çevrilmiş *Chelsea Girls* və *Empire* kimi bir neçə film də çəkir. SCUM-un (Kişiləri Məhvetmə Cəmiyyəti) təsisçisi və yeganə üzvü Valeri Solanas 1968-ci ildə Vorholun "Fabrik" adı ilə tanınan studiyasına hücum edərək ona atəş açır. Bu sui-qəsd az qala rəssamın ölümü ilə nəticələnəcəkdi.

Vorhol 1970-ci illərin əvvəllərində "İntervyu" (*Interview*) jurnalının nəşrinə başlayır və rəssamlığa baxışlarını dəyişir. Həmin illərdə onun yaratdığı əsərlər sırasına *Maos*, *Skulls*, *Hammer and Sickles*, *Torsos*, *Shadows* və sifariş əsasında işlədiyi digər çoxsaylı portretlər daxildir. Vorhol, həmçinin "Endi Vorholun fəlsəfəsi" (A-dan B-yə qədər və yenidən geriyə) adlı əsərin də müəllifidir. 20-ci əsrin məşhur rəssamlarından biri, böyük şöhrət qazanmış Vorhol əsərlərini dünyanın əksər muzey və rəsm qalereyalarında sərgiləyib.

Rəssamın yaradıcılığının 1980-ci illərdəki mərhələsi "POPizm: Vorholun 60-ları" (*POPism: The Warhol '60s*) əsərinin nəşri və "20-ci əsr yəhudilərinin portretləri" (*Portraits of Jews of the Twentieth Century*), "Retrospektivlər və təkrar baxış" (*Retrospectives and Reversal*) adlı sərgiləri ilə başlayır. O, həmçinin 1982-ci ildə kabel televiziyasında *Andy Warhol's TV* və 1986-cı ildə MTV üçün *Andy Warhol's Fifteen Minutes* televiziya şoularına müəlliflik edir. Vorholun 1980-ci illərdə yaratdığı rəsm əsərlərinə *The Last Suppers*, *Rorschachs* və pop mövzusunda *Ads* adlı silsilə əsərləri daxildir. Vorhol, gənc rəssamlarla, o cümlədən Jan Mişel Baskia, Françesko Klemente və Keyt Harinq ilə əməkdaşlıq edərək fəaliyyət göstərib.

Endi Vorhol 1987-ci ildə fevralın 22-də öd kisəsində aparılan cərrahiyyə əməliyyatından sonra vəfat edib.

Səh.11 Sonuncu şam yeməyi, 1986
HMP kağızında trafaret basması və tabaşirli rəngli kağız kollajı ilə işlənib
60.3 x 79.7 sm
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.2124

Səh.13 Merilin, 1967
91,4x91,4 cm
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.

Səh.14-15 On səkkiz rəngli Merilin, "Reversal" silsiləsindən, 1979-1986-cı illər
Qalın kətan üzərində akril və trafaret boya ilə işlənib
138,5x214 sm
şəxsi kolleksiya

Səh.16 Lenin, 1986
Qalın kətan üzərində akril və trafaret boya ilə işlənib
55.9x40.6 sm
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.367

Səh.17 Mao, 1973
Kətan üzərində akril və trafaret boya ilə işlənib
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Dia İncəsənət Mərkəzinin töhfəsi.
1997.1.24

Səh.18 Qırmızı Ceki, 1964
(Jaklin Buvye Kennedi Onassis)
Kətan üzərində akril və trafaret boya ilə işlənib
101.6x101.9x2.5 sm
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.54

Səh.19 Ceki, 1964
(Jaklin Buvye Kennedi Onassis)
Kətan üzərində akril və trafaret boya ilə işlənib
50.8x40.6 sm
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.110

Səh.20 Oraq və çəkic, 1976
Kətan üzərində akril və trafaret boya ilə işlənib
182.9x218.4x3.2 cm
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.188

Səh.21 Dollar işarəsi, 1981
Kətan üzərində akril və trafaret boya ilə işlənib
228.6x177.8 cm
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.249

Səh.22 Cudi Qarlend və Liza Minnelli, 1979
Qalın kətan üzərində akril və trafaret boya ilə işlənib
101.6x101.6x3.2 sm
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.552

Səh.24 Liza Minnelli, 1979
101.6x101.6 cm
Kətan üzərində akril və trafaret boya ilə işlənib
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Dia İncəsənət Mərkəzinin töhfəsi
1997.1.10b

Səh.25 Cozef Beys, 1980
Cozef Beys, Almaniya, 1921-1986
Kətan üzərində akril və trafaret boya ilə işlənib
101.6x101.6 cm
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Dia İncəsənət Mərkəzinin töhfəsi
1997.1.12b

Səh.26 Dennis Hopper, 1971
Kətan üzərində akril və trafaret boya ilə işlənib
101.6x101.6 sm
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.573

Səh.27 Lana Törner, 1985
Kətan üzərində akril və trafaret boya ilə işlənib
101.6x101.6 sm
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.672

Səh.28 Filipin kəlləsi (rentgen şəkilləri), 1985
Qalın kətan üzərində akril və trafaret boya ilə işlənib
101.6x101.6x3.8 sm
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.338

Səh.29 Roy Lixtenşteyn, 1976
Kətan üzərində akril və trafaret boya ilə işlənib
101.6x101.6 sm
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.607

Səh.31 Avtoportret, 1978
Kətan üzərində akril və trafaret boya ilə işlənib
40.6x33 sm
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.812

Səh.32 Avtoportret, 1978
Kətan üzərində akril və trafaret boya ilə işlənib
40.6x33 sm
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.813

Səh.33 Avtoportret, 1986
Kətan üzərində akril və trafaret boya ilə işlənib
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.823

Səh.35 Yumurtalar, 1982
Kətan üzərində akril və trafaret boya ilə işlənib
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.259

Səh.36 Xaç, 1981-1982
Kətan üzərində akril və trafaret boya ilə işlənib
228.6x177.8x3.2 sm
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.261

Səh.37 Sonuncu şam yeməyi (Fraqment), 1986
HMP kağızında trafaret basması və tabaşirli rəngli kağız kollajı
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.2125

Səh.38 Madonna və körpə, tarixi məlum deyil
Kağız üzərində qızıl zəri, qızıl kollaj damğası və Dr. Martin anilin boyası ilə işlənib
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.2067

Səh.39 Sonuncu şam yeməyi, 1986
HMP kağızında trafaret basması və tabaşirli rəngli kağız kollajı ilə işlənib
60.3 x 79.7 sm
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.2124

Səh.40 Dua edən kişi əlləri, 1950-ci illər
Stratmor kağızında mürəkkəb və Dr. Martin anilin boyası ilə işlənib
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.914

Səh.41 Sui-qəsd, 1963
Rəngli kağız üzərində trafaret basma
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.2279

Səh. 43 Kəllə, 1976
Kətan üzərində akril və trafaret boyası ilə işlənib
183.2x204.5 sm
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Dia İncəsənət Mərkəzinin töhfəsi
2002.4.31

Səh.44 Güllər,1964-1965
61x61x1.9 cm
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Dia İncəsənət Mərkəzinin töhfəsi

Səh.45 Güllər, 1970
91,4x91,4 cm
Zoya Qalereyası, şəxsi kolleksiya
Bratislava, Slovakiya Respublikası

Səh.46 Bıçaqlar, 1981-1982
Kətan üzərində akril və trafaret boya ilə işlənib
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.271

Səh.47 Tapança, 1981-1982
Kətan üzərində akril və trafaret boya ilə işlənib
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.274

Səh.48 Tunabalığı bəlası, 1963
Kətan üzərində trafaret və gümüş boya ilə işlənib
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.17

Səh.49 Ölüm anı, 1954
Stratmor kağızında mürəkkəb və akvarellə işlənib
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.1097

Səh.50 İntibah rəsmlərindən fraqmentlər (Sandro Bottiçelli, Veneranın doğulması, 1482), 1984
Kətan üzərində akril və trafaret boya ilə işlənib
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.307

Səh.52 İntibah rəsmlərindən fraqmentlər (Leonardo da Vinçi, Müjdə, 1472), 1984
Kətan üzərində akril və trafaret boya ilə işlənib
121.9 x 182.9 sm
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.306

Səh.53 Etrusk fiqurları (Dişi şir qəbri, Tarkviniya), 1986
Qalın kətan üzərində akril və trafaret boya ilə işlənib
106.7x142.2 sm
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.410

Səh.54 Səbəbsiz üsyan (Ceyms Din), 1985
Kətan üzərində akril və trafaret boya ilə işlənib
55.9x55.9 sm
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.479

Səh.55 Ronald Reyqan, 1985
Kətan üzərində akril və trafaret boya ilə işlənib
55.9x55.9 sm
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.476

Səh.56 Azadlıq heykəli, 1980-ci illər
Jelatin gümüş basma
20x25.2 sm
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
2001.2.907

Səh.57 Azadlıq heykəli, 1986
Kətan üzərində akril və trafaret boya ilə işlənib
203.2x193 cm
Endi Vorhol Muzeyi, Pitsburq; Fond Kolleksiyası, Endi Vorhol Fondunun Təsviri İncəsənət Əsərləri qrupu üçün töhfəsi.
1998.1.347

Səh.58 Kamuflyaj, 1987
Lövhə üzərində basmaqəlib üsulu ilə işlənib
96,5x96,5 sm
Zoya Qalereyası, şəxsi kolleksiya
Bratislava, Slovakiya Respublikası

Səh.59 Gümüş buludlar (Vorhol Muzeyinin silsilə əsərləri), 1994, təkrar çapı -1994.
Heliumla doldurulmuş metal qatlı platsmas plyonka
Endi Vorhol Muzeyi, Pitsburq
IA1994.13

Səh.60 Nəsli kəsilməkdə olan növlər, 1983, Sibir pələngi
Lövhə üzərində basmaqəlib üsulu ilə işlənib
96,5x96,5 sm
Zoya Qalereyası, şəxsi kolleksiya
Bratislava, Slovakiya Respublikası

Səh.61 Nəsli kəsilməkdə olan növlər, 1983, Qara kərgədanlar
Lövhə üzərində basmaqəlib üsulu ilə işlənib
96,5x96,5 sm
Zoya Qalereyası, şəxsi kolleksiya
Bratislava, Slovakiya Respublikası

Səh.62 Nəsli kəsilməkdə olan növlər, 1983, İri buynuzlu qoç
Lövhə üzərində basmaqəlib üsulu ilə işlənib
96,5x96,5 sm
Zoya Qalereyası, şəxsi kolleksiya
Bratislava, Slovakiya Respublikası

Səh.63 Nəsli kəsilməkdə olan növlər, 1983, Ağac Qurbağası
Lövhə üzərində basmaqəlib üsulu ilə işlənib
96,5x96,5 sm
Zoya Qalereyası, şəxsi kolleksiya
Bratislava, Slovakiya Respublikası

Səh.64 Nəsli kəsilməkdə olan növlər, 1983, Nəhəng panda
Lövhə üzərində basmaqəlib üsulu ilə işlənib
96,5x96,5 sm
Zoya Qalereyası, şəxsi kolleksiya
Bratislava, Slovakiya Respublikası

Səh.65 Nəsli kəsilməkdə olan növlər, 1983, San Fransisko gümüş ləkə
Lövhə üzərində basmaqəlib üsulu ilə işlənib
96,5x96,5 sm
Zoya Qalereyası, şəxsi kolleksiya
Bratislava, Slovakiya Respublikası

Səh.66 Nəsli kəsilməkdə olan növlər, 1983, Oranqutan
Lövhə üzərində basmaqəlib üsulu ilə işlənib
96,5x96,5 sm
Zoya Qalereyası, şəxsi kolleksiya
Bratislava, Slovakiya Respublikası

Səh. 67 Nəsli kəsilməkdə olan növlər, 1983, Qrevi zebri
Lövhə üzərində basmaqəlib üsulu ilə işlənib
96,5x96,5 sm
Zoya Qalereyası, şəxsi kolleksiya
Bratislava, Slovakiya Respublikası

Səh.68 Nəsli kəsilməkdə olan növlər, 1983, Afrika fili
Lövhə üzərində basmaqəlib üsulu ilə işlənib
96,5x96,5 sm
Zoya Qalereyası, şəxsi kolleksiya
Bratislava, Slovakiya Respublikası

Səh.69 Nəsli kəsilməkdə olan növlər, 1983, Keçəl qartal
Lövhə üzərində basmaqəlib üsulu ilə işlənib
96,5x96,5 sm
Zoya Qalereyası, şəxsi kolleksiya
Bratislava, Slovakiya Respublikası

Nəşr Heydər Əliyev Fondu və Heydər Əliyev Mərkəzinin
birgə layihəsi çərçivəsində 2013-cü ildə çap olunmuşdur.

ISBN: 978-9952-483-47-5

© Heydər Əliyev Fondu. 2013.
© Heydər Əliyev Mərkəzi. 2013.

www.heydaraliyevcenter.az
www.heydar-aliyev-foundation.org